*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 71-76* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.71*

# Tarix boyu yaşayan mənəvi dəyərlər

**Aytək Məmmədova**
Fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu. Azərbaycan.
E-mail: a.z.m-9@mail.ru

**Annotasiya.** Məqalədə mənəvi dəyərlər haqqında problemlər və bu dəyərlərin insan birlikləri tərəfindən formalaşan bir sistem kimi qəbul edildiyi göstərilir. Mənəvi dəyərlərdən bəhs edilərkən, ilk öncə insana xas olan ədalətlilik, vətənpərvərlik, mötədillik, dözümlülük, ədəblilik, dürüstlük, təvazökarlıq, ümumiyyətlə, bütün müsbət keyfiyyətlər, fəzilətlər nəzərdə tutulur.
Tarixən mövcud olan mənəvi dəyərlər, ənənələr, fəzilətlər hər zaman qiymətini saxlayır, nəsillər bu mənəvi sərvəti sələflərindən alaraq gələcək nəsillərə ötürürlər. Hər bir millətin adət-ənənələri, mənəvi dəyərləri ulularından qalan zəngin və qiymətli xəzinədir. Tarixin və dövrün tələblərindən asılı olaraq, mənəvi dəyərlərə baxışlarda müəyyən fərqlilik özünü göstərsə də, ümumi mənada mənəvi dəyərlərə yanaşmalar dəyişmir.
**Açar sözlər:** tarix, dəyər, elm, din, insan

**Məqalə tarixçəsi:** göndərilib – 11.05.2023; qəbul edilib – 31.05.2023

# Moral values that live throughout history

**Aytek Mammadova**
Doctor of Philosophy in Philosophy
Institute of Philosophy and Sociology of ANAS. Azerbaijan.
E-mail: a.z.m-9@mail.ru

**Abstract.** The article examines the problems of moral values and shows that these values are perceived as a system formed by human knowledge. When we talk about moral values, we, first of all, mean justice, patriotism, moderation, tolerance, politeness, honesty, modesty, in general, all the positive qualities and virtues that are inherent in a person.
Historically, the existing moral values, traditions and virtues, which always and at all times retain their value, and generations pass on this spiritual wealth from their predecessors to future generations. The traditions and moral values of each nation are a rich and valuable treasure left behind by their ancestors. Despite the fact that there are some differences in views on moral values, depending on the requirements of history and time, approaches to moral values in general do not change.
**Keywords:** history, value, science, religion, human

**Article history:** received − 11.05.2023; accepted − 31.05.2023

## Giriş / *Introduction*

İnsanın formalaşmasında təhsilin, elmin və ən əsası ailənin, ətraf aləmin mühüm rolu vardır. Yaxşı əxlaqi tərbiyənin nəticəsində insanda müsbət mənəvi keyfiyyətlər, fəzilətlər yaranır.

Bütövlükdə götürüldükdə mənəvi və əxlaqi dəyərlər, bir sistem kimi xalqın, ölkənin varlığının təqdimatıdır. Bu baxımdan dəyərlər, zaman-zaman insan birlikləri tərəfindən formalaşan bir sistem kimi qəbul edilir. İnsan ilk öncə ailəsinin və ona verilən təlim-tərbiyənin, təhsilin sayəsində formalaşaraq, təkmilləşərək müəyyən əxlaqi nizama və davranışa yiyələnir.

Bütün tarixi dövrlər üçün aktuallıq kəsb edən dəyərlər, xüsusilə mənəvi dəyərlər məsələsi müasir zamanda da cəmiyyətdə böyük əhəmiyyət daşıyır. Dəyər anlayışı nisbidir, bu baxımdan yanaşmalar da müxtəlifdir. Cəmiyyətdə hər bir fərdin əxlaq qaydalarına uyğun davranmaları lazımdır, bu da ilk öncə ailə üzvlərinin bir-biri ilə, eyni zamanda ətrafdakılarla münasibəti deməkdir. Buna görə əxlaq məsələlərindən bəhs edilərkən, kiçik dövlət kimi qəbul edilən ailə daxilində üzvlərin bir-biriləri ilə münasibətlərinə diqqət yetirilir, ailə üzvlərinin əxlaqlı, mənəviyyatlı şəxslər kimi fəaliyyətləri göstərilir. Valideynlərin ailə əxlaqı qaydalarına riayət etmələri vacibdir. Çünki ailə cəmiyyətin təməlidir, burada böyüklərin əxlaqi davranışları uşaqların tərbiyəsində mühüm əhəmiyyət daşıyır. Ailədə müəyyən davranış qaydaları çərçivəsində təlim və tərbiyə alan hər ailə üzvü mənəviyyatlı şəxslər kimi formalaşırlar, həmin insanlar davranışları ilə ictimai həyatda faydalı işlər görürlər. İnsanların sistemli şəkildə yüksək mənəviyyat uğrunda əxlaqi fəaliyyətləri cəmiyyətin tərəqqisidir.

## Əsas hissə / *Main Part*

Mənəvi dəyərlərdən bəhs edilərkən ilk öncə insana xas olan ədalətlilik, vətənpərvərlik, mötədillik, dözümlülük, ədəblilik, dürüstlük, təvazökarlıq, ümumiyyətlə, bütün müsbət keyfiyyətlər, fəzilətlər nəzərdə tutulur.

İslam dinində dəyərlər məsələsi haqqında məsələləri işıqlandırarkən ilk öncə müqəddəs kitab Qurana nəzər yetirmək zəruridir. İnsanların bəzisi xeyirxah, bəzisi isə bədxah əməllər törədir. Hər bir insan öz əməlinin müqabilini alır. Qurani-Kərimdə bununla əlaqədar deyilmişdir: “Yaxşı işə vasitəçi olana (onun savabından), pis işə vasitəçi olana (onun günahından) bir pay düşür. Əlbəttə, Allah hər şeyə qadirdir. (Hər şeyin əvəzini verəndir)” (ən-Nisa Surəsi, 85-ci Ayə).

Dini dəyərlərdən bəhs edərkən, insanın nöqsanlardan, günahlardan, xətalardan uzaqlaşıb, bir daha təkrar etməyəcəyini bildirməsi, tövbə etməsi haqqında məsələ İslam dinində öz əksini tapmışdır: “Həqiqətən, sənin Rəbbin yenilməz qüvvət, mərhəmət sahibidir! (Kafirlərdən intiqam alar, tövbə edən bəndələrini bağışlayar!)” (əş-Şüara Surəsi, 175-ci Ayə); “Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz. (Ya Peyğəmbər!) Sən ancaq Rəbbindən (Onun əzabını) görmədikləri halda, qorxanları və (vaxtlı-vaxtında) namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs (günahlardan, küfrdən) təmizlənsə, özü üçün təmizlənmiş olar (savabı özünə yetişər). Axır dönüş ancaq Allahadır!” (Fatir Surəsi, 18-ci Ayə).

İnsan bəd əməllərdən, günahlardan uzaqlaşmaqla müsbət dəyərlər qazanır: “Kor ilə görən eyni olmaz” (Fatir Surəsi, 19-cu Ayə); “Zülmətlə nur da (eyni deyildir)!” (Fatir Surəsi, 20-ci Ayə); “Kölgə (sərin) ilə isti (eyni olmaz)” (Fatir Surəsi, 21-ci Ayə); “(Allah) onlara (əməllərinin) mükafatlarını versin və Öz lütfündən (kərəmindən) onlara artırsın! Həqiqətən, (Allah) bağışlayandır, qədirbiləndir! (Bəndələrinə Ona etdikləri şükür müqabilində bol nemət əta edər)” (Fatir Surəsi, 30-cu Ayə).

Lakin insan həyatda öz fəaliyyətinə görə dəyərləndirilir. Belə ki, yaxşı əməlləri və pis əməlləri baxımından insan mövqe qazanır. İnsanın iradə azadlığı ilə əlaqədar məsələ orta əsrlərdə İslam aləminin fəlsəfəsində önəmli yeri vardı. Bu mənada “iradə azadlığı məsələsinə

cəbərilər ilə qədərilər bir-birilərinə zidd mövqe tuturdular. Cəbərilərin əqidəsinə görə, insanın əlindən müstəqil surətdə heç şey gəlmir, o, heç şey bacarmır, gördüyü işləri icbari olaraq yerinə yetirir. İnsanın özünəməxsus nə qüdrəti, nə iradəsi, nə də ixtiyarı vardır. Allah bir çox təbii şeylərə hərəkət bəxş etdiyi kimi, insanın da işlərini bilavasitə özü müəyyənləşdirir. Hüseyn Nəccar demişdir ki, Allah bəndələrin istər xeyir, istər şər, istər yaxşı, istər pis əməllərinin xaliqidir. Təbiətə, insana mənsub edilən hərəkət, fəaliyyət, məsələn, ağacın bar verməsi, suyun axması, günəşin çıxması və batması, buludun hərəkəti, yağışın yağması, bitkinin böyüməsi və i.a., eləcə də insanın bütün yaxşı və pis əməllərini özü icra etməsi ancaq məcazi mənadadır.

Cəbərilərin əksinə olaraq, qədərilər iddia edirdilər ki, insan öz hərəkətlərində sərbəstdir. Allah onun işlərinə qarışmır, şər də, xeyir də insanın öz əməllərinin nəticəsidir. Cəbərilər, "insan pis bir iş tutursa, onu öz xoşu ilə deyil, Allahın qabaqcadan qərarlaşmış iradəsi ilə tutmuş olur", dedikdə məsuliyyət hissini öz boyunlarından atırlar. Eləcə də, qədərilər "hər bır iş yalnız insanın özündən asılıdır, ilahi qüvvənin ona müdaxiləsi yoxdur", dedikdə dinsizliyə meyil göstərirdilər. Beləliklə, cəbərilər də, qədərilər də ortodoksal islam ideologiyasına xilaf çıxırdılar" [3, s.34-35].

Hilmi Ziya Ülkən İslam dininin müqəddəs kitabı Quranın bütün müsəlmanların, xüsusən Yaxın və Orta Şərq ölkələrində yaşayan türk xalqlarının ideologiyası üçün həm sakral (müqəddəs), həm də həyati əhəmiyyətə malik qiymətli mənbə olduğunu bildirmişdir. Türkiyəli alim Qurani-Kərim haqqında yazırdı ki, Quran, nəsihətlərdən ibarət bir risalə deyil, çox həcmli bir kitabdır. Sonradan toplanmış və yaxud bir-birinə tamamilə uymayan rəvayətlər deyildir. Peyğəmbərlərin gerçək həyatında hafizlər tərəfindən təsbit edilmiş, vəfatından çox sonra toplanmış və yazdırılmışdır. Buna görə də Quranı davam etdirdiyi əski etiqadları, sonradan əlavə edilmiş olanlardan ayırmaq daha asandır [4, s.227].

Beləliklə, bütün dinlərdə, müqəddəs kitablarda insana böyük dəyər verilir və ali varlıq kimi üstün tutulur. Allahın kəlamı Quranda insan, yaranmışların ən şərəflisi kimi qiymətləndirilir.

Uşaq vaxtlarından aşılanan müsbət keyfiyyətlər yeniyetməlik dövründə təkmilləşdirilərək, insanın kamilləşməsinə gətirib çıxarır. Bu baxımdan insanın xasiyyəti əsasən kiçik yaşlarından formalaşır. Hazırkı zamanda, müasir cəmiyyətdə insana xas olan ədalətli, vətənpərvər, dözümlü, dürüst, təvazökar, sülhpərvər və başqa müsbət keyfiyyətlər, fəzilətlər mənəvi dəyərlər kimi qəbul edilir.

İnsanlarda ədalətlilik duyğusu orta əsr Şərq mütəfəkkirlərinin əsərlərində ifrat və tərifdən uzaqlaşmaq, orta dərəcədə olmaq – mötədillik deməkdir. Zərərli işlərdən, yalandan uzaqlaşmaq, doğruluğa və dürüstlüyə çalışmaq müqəddəs kitablarda, müdrik şəxsiyyətlərin kəlamlarında əsas götürülmüşdür. Bütün fəaliyyətində insanın ədalətli, dürüst olması vacibdir. İnsanın zərər görsə, məhv olacağını bilsə belə, doğruluqdan və dürüstlükdən uzaqlaşmamağı müdrik kəlamlarda ifadə edilmişdir. Qurani-Kərimdə bununla əlaqədar deyilmişdir: "Siz bilə-bilə haqqı batillə qarışdırmayın, haqqı gizlətməyin!" (Əl-Bəqərə Surəsi, 42-ci Ayə); "(Malınızı) Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq (ehsan) edənləri sevir" (Əl-Bəqərə Surəsi, 195-ci Ayə).

XX əsrdə Türkiyənin məşhur mütəfəkkiri Hilmi Ziya Ülkən də cəmiyyətdaxili münasibətlərdə ədaləti ön plana çəkmişdir: "Ədalət, təbiətin düzəninə uymaqdır; insanları əxlaq mərtəbələrinə görə ayırmaqdır. Hürlərin kölələrə, tamların əksiklərə, qüdrətlilərin zəiflərə, sevənlərin sevməsini bilməyənlərə borcudur" [5, s.61-62]. Türkiyəli alim qanunların aliliyinin təmin edilməsini əsas hesab edir, zülmü pisləyir. Bir millət ki, zülmüylə öyünmüş, canavarlıqları şərəf deyə göstərmiş, insanlıq üçün, gələcəyin əbədi səltənəti üçün heç bir hazırlıq görməmiş, günün zəfərləri içində məst olaraq fəziləti və əxlaqı büsbütün unutmuşdur: O millətin davam etməsinə, əbədi olmasına əsla imkan yoxdur [5, s.166].

Tarixin bütün dövrlərində ədalət, mahiyyəti etibarilə bərabərlik məzmunu daşımış, insanlar arasında zamanından asılı olmadan ədalət anlayışına baxış eynidir.

İnsanda yüksək mənəvi dəyərlərin yaranmasında dini etqadın da mühüm yeri vardır. İslam dininin müqəddəs kitabı Quran bütün müsəl-

manların ideologiyası üçün qiymətli mənbədir. Xilafətin fəthləri nəticəsində, ən əsası isə mütərəqqi cəhətlərinə görə İslam dini yayılırdı.

İnsanlarda tolerantlığın, dini dözümlülüyün mövcudluğu mühüm əxlaqi dəyərlərdəndir. İnsanların fərqli fikirlərinə, adətlərinə, həyat tərzlərinə, davranışlarına yaxşı münasibət göstərib, dözümlə yanaşmaq tolerantlığın ifadəsidir. İslam aləmində bu cəhət parlaq şəkildə özünü gəstərir. Zakir Məmmədov İslamda dini dözümlülük haqqında yazmışdır: "İslam dini bəzilərinin cizyə vergisindən azad olmaları, bəzilərinin hakim dairələrdə mövqe tutmaları və başqa məqsədlər üzündən, ümumiyyətlə isə konüllərə daha tez yol tapması, həyatiliyi, munisliyi sarıdan qəbul edilirdi. Monist islam dünyagörüşü atəşpərəstliklə ziddiyyət təşkil etdiyindən, onu daha artıq dərəcədə sıxışdırırdı.

Keçmiş etiqadlarla müqayisədə islamın mütərəqqi cəhətləri, xüsusən, azadfikirlilik meyillərinə dözümlülüyü ona qarşı rəğbəti artırırdı" [3, s.21].

Dünyəvi elmlər müsəlman İspaniyası vasitəsilə Qərbə nüfuz etmişdir. Lakin xristian fanatikləri İslam aləmində yaranmış irsdən bəhrələnsələr də, orta əsrlərdən etibarən İslam dininə dözümsüzlük göstərmişlər. Təqribən 200 il ərzində, yəni XI əsrin sonlarından XIII əsrin sonlarına qədər davam edən bir dövrü əhatə edən Səlib, Xaçlı səfərləri bunun ifadəsidir.

İtaliyanın görkəmli şairi Aligyeri Dante (1265-1321) İslam aləmində yaranmış irsdən faydalansa da, xristian olmayanların fəaliyyətini yüksək qiymətləndirmiş, lakin dini dözümsüzlük göstərərək etiqadlarına qarşı fikirlər bildirmişdir. İtalyan şairi Həzrəti Məhəmməd Peyğəmbərə, onun əmisi oğlu və kürəkəni, Raşidi xəlifələrinin axırıncısı Həzrəti Əliyə mənfi münasibət bəsləmiş, bunu "İlahi komediya" poemasında göstərmişdir. Dante xaçpərəst olmadıqları üçün Sokrat, Platon, Demokrit, Diogen, Fales, Anaksaqor, Zenon, Empedokl, Heraklit və başqa filosoflarla, alimlərlə yanaşı, İbn Sina və İbn Rüşdü də cəhənnəmdə göstərir.

Dini dözümsüzlüyün tarixi ənənələrindən bəhs edərkən və onları aradan qaldırmaq üçün müqayisəli, komparativist tədqiqatların zəruriliyi özünü göstərir. Hilmi Ziya Ülkən bəşəri dinlərin yaranışını inqilabi bir hadisə kimi dəyərləndirərək, bu dinlərin insanlığa mənəvi yüksəliş və kamilləşməyi öyrətdiyini, sosiumun içində şəxsiyyətin dini etiqadla, eyni zamanda birgəyaşayış qanunlarına ehtiram göstərməklə yaşaması prinsiplərini özündə əks etdirdiyini bildirmişdir.

Müasir dövrdə də xristian fanatiklərinin dini dözümsüzlüklə əlaqədar fəaliyyətləri davam edir. Əlbəttə, belə bir vəziyyət ürəkaçan deyil. Bu dini dözümsüzlüyün stereotipləri hələ də davam edir. Belə ki, Məhəmməd Peyğəmbərin karikaturası və təhqiredici filmin çəkilməsi, Quranın yandırılması və s.

Sülhpərvər, sülhsevər xüsusiyyət də insanda yüksək əxlaqi dəyərlərdən biri kimi mənalandırılır. Sülh kəlməsi dedikdə, ilk öncə müharibələrdən, döyüşlərdən, bədxahlıqdan, pisliklərdən uzaq, insanların birlik halında, əmin-amanlıq, dinclik şəraitində yaşaması nəzərdə tutulur. Sülh uğrunda mübarizə aparmaq hər bir şəxs və hər bir dövlət üçün aktuallıq kəsb edir. Pisliklərdən uzaq olmaq insanların birgə yaşayışında mühüm amildir.

İncəsənətin bir növü kimi musiqinin insanın düşüncəsinin, psixologiyasının, xarakterinin formalaşmasında müəyyən təsiri vardır. Şərq musiqisi və Qərb musiqisi, həmin musiqilərin qarşılıqlı təsiri məsələləri musiqişünaslar, alimlər tərəfindən araşdırılmışdır. Türkiyəli alim Hilmi Ziya Ülkən Qərb musiqisinin İslam aləmi ilə təmasdan öncə yalnız kilsə musiqisindən ibarət olduğunu, İslam-Şərq musiqisinin sistemli notu ilə dərinləşdiyini yazmışdır [6, s.304-305].

Əsrlərdən bəri yadigar qalan musiqi alətləri xalqın mənəvi sərvətidir. Dahi bəstəkar, ictimai xadim, Şərqdə opera sənətinin əsasını qoymuş Üzeyir bəy Hacıbəyov Azərbaycan türklərinin dilinin ümumi Zaqafqaziyada beynəlmiləl bir dil olduğu kimi, ruhani dilləri olan musiqilərin dəxi yenə eyni vəziyyətdə olduğunu bildirmişdir. Azərbaycan musiqisinin qədimliyinə, zənginliyinə diqqət yönəldən dahi bəstəkar, milli musiqimizin erməni və gürcülərə təsir etdiyini, içlərində bizim musiqini özlərinə sənət edən mahir ustadlarının çox olduğunu yazmışdır.

Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, o, ermənilərin tar və kamança, gürcülərin isə zurna və balaban çalsalar da, bunlarda xanəndələrin az olmasına diqqət çəkmişdir. Dahi bəstə-

kar bunun səbəbini belə izah etmişdir: erməni və ya gürcü xanəndəsi bizim əruz vəznilə yazılmış şeirlərimizi müvafiqi-vəzn oxumaq və bir para səslərimizi dürüst tələffüz etməkdə çətinlik çəkir. Sazəndə dəstələrində tar və kamança çalan ermənilər olduğu halda, xanəndəsi əksərən türklərdən olur.

Tarixin müəyyən dövrlərində, xüsusilə Sovet hakimiyyətinin ilk illərində Avropa musiqisinə üstünlük verilmişdir. Üzeyir bəy Hacıbəyov bu mövqeyə qarşı çıxaraq göstərmişdir ki, Avropa musiqisindən əlavə, bir də Şərq musiqisi vardır və biz azərbaycanlılar özümüz Şərq əhlindən olduğumuza görə, musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalsaq, öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq. Tar isə Şərq musiqisi təhsilini genişləndirə bilən alətdən ən qiymətlisi, ən mühümüdür [1, s.203]. XX əsrin 20-30-cu illərində musiqi aləti kimi tara qarşı hücumlar vardı. Üzeyir bəy Hacıbəyov kimi milli mənəvi dəyərlərinə bağlı olan bir çox Azərbaycan ziyalıları, əsasən də Azərbaycan poeziyasının klassiki, unudulmaz şair Mikayıl Müşfiq (1908-1939) 1932-1933-cü illərdə qələmə aldığı “Tar” şeirində belə hücumlara qarşı çıxırdılar.

Mənəvi dəyərlərdən, əxlaqi dəyərlərdən biri vətənpərvərlik, vətənsevərlik duyğusunun mövcudluğudur. Bu duyğu insanda kiçik yaşlarından özünü göstərir, ailənin və ətraf aləmin təsiri ilə formalaşır. Elmi və fəlsəfi əsərlərdə filosoflar və mütəfəkkirlər Vətənə münasibətlərini parlaq şəkildə ifadə etmişlər. Bu baxımdan XII əsrdə yaşayıb-yaratmış sufizmin panteist fəlsəfəsinin banisi, Azərbaycan filosofu Eynəlquzat Miyanəçinin (1099-1131) vətən haqqında fikirləri maraq doğurur. Belə ki, filosof 28-29 yaşlarında azadfikirlilik üstündə müsəlman qanunçuları – fəqihlər tərəfindən təqiblərə məruz qalmış, 1128-ci ildə həbs edilib, Bagdad zindanına göndərilmişdir. Zakir Məmmədov filosofun burada keçirdiyi ağrılı-acılı günlərindən bəhs edərkən yazır: “Vətən həsrətindən Eynəlquzat Miyanəci Bağdad zindanında yazdığı “Ölkələrin alimlərinə vətəndən ayrı salınmış qəribin şikayəti” adlanan traktatında xəbər verir. O, doğma elindən-obasından uzaq düşdüyünə görə, iztirab keçirir, yuxusuz qalır, həsrətə dözə bilməyib göz yaşları axıdır. “Vətən sevgisi imandır, gizli deyildir ki, vətən sevgisi insan fitrəti ilə qatışmışdır”, – deyə aləmə car çəkir” [3, s.118].

Vətənpərvərlik ilk öncə ölkənin vətəndaşı olmaq deməkdir. Türkiyəli alim Hilmi Ziya Ülkən vətəndaş barədə fikirlərini belə izah etmişdir: Vətəndaş demək, qanunlara ümidlə boyun əyən deməkdir. Gələcək qayğısıyla ədaləti istəyən deməkdir. Cəza qorxusuyla deyil, fəqət sabahın xoşbəxtliyi arzusuyla davranan və öz torpağında hər gün daha yaxşını, daha gözəli gözləyən deməkdir. Daxilində məsuliyyət günəşi bir şəfəq kimi doğmağa başlamış olan insan deməkdir. Xalqın şüurundakı qaranlıq yanında bu şəfəq bir irəliləyiş deyildirmi? Vətəndaş, sabahı gözlədiyi üçün vətənini sevəndir. Gözəl günlərin ümidiylə, bu günün cəfasına və çətinliyinə dözəndir. Qanun onun gözündə gələcəyin və xoşbəxtliyin yaxşı bir xəbərçisi olan bir sədə kimidir. Vətəndaş özlüyündə heç bir təşəbbüsə daxilolma gücündə deyildir. Fəqət önündə açılan üfüqlərlə, sabah üçün hazırlanan inanılmış və həqiqi vədlərlə o böyük bir qüvvə və sağlam bir təməl olacaqdır. Xalqı vətəndaş etdik [5, s.122].

Hilmi Ziya Ülkən vətəndaş və vətənpərvər (vətənsevər) anlayışlarını qarşılaşdırır, vətənsevərin daşıdığı mənanı belə açıqlayır: “Vətənpərvər, vətənsevər, qanunları cürətlə və qəhrəmanlıqla müdafiə edən deməkdir. Zülm içində yaşamayan, öz vətənində hürriyyətin gözətçiliyini edəndir. Vətənsevər qanun hazırlamaz, fəqət qanunları qoruyar. Ədaləti yerinə gətirməz, ancaq ədalətin icra edilməsinə xidmət edər. Qanunların zülmkarlar əlində, saxtakarlar və anlayışsızlar əlində alçalmasına meydan verməz. Vətənsevər bir mərtəbədir ki, vətəndaşın içindən yüksələcək, mənlik və dəyərvermə əxlaqına dayanacaqdır” [5, s.124]. Vətənində, ölkəsində milli-mənəvi dəyərlərin qorunmasına və inkişafına çalışan hər bir şəxs vətənpərvərdir.

## Nəticə / *Conclusion*

Tarixən mövcud mənəvi dəyərlər, ənənələr, fəzilətlər hər zaman qiymətini saxlayır, nəsillər bu mənəvi sərvəti sələflərindən alaraq gələcək nəsillərə ötürürlər. Hər bir millətin adət-ənənə-

ləri, mənəvi dəyərləri ulularından qalan zəngin və qiymətli xəzinədir. Tarixin və dövrün tələblərindən asılı olaraq mənəvi dəyərlərə baxışlarda müəyyən fərqlilik özünü göstərsə də, ümumi mənada mənəvi dəyərlərə yanaşmalar dəyişmir.

**Ədəbiyyat / *References***


1. Hacıbəyov, Ü. Seçilmiş əsərləri. Tərtib edəni, qeyd, izah və lüğətin müəllifi Mirabbas Aslanov. – Bakı, 1985.
2. Quran. (Ərəb dilindən Azərbaycan dilinə tərcümə edənlər: Vasim Məmmədəliyev və Ziya Bünyadov). – Bakı: Qismət Nəşriyyat və Poliqrafiya Ltd., 1997.
3. Məmmədov, Z. Azərbaycan fəlsəfəsi tarixi. 2. Nəşr. – Bakı: Şərq-Qərb, 2006.
4. Ülken, Hilmi Ziya. Anadolu Kültürü ve Türk Kimliği Üzerine. – İstanbul, 2006 .
5. Ülken, Hilmi Ziya. Aşk ahlakı. – İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2010.
6. Ülken, Hilmi Ziya. Uyanış Devirlerinde Tercümenin Rolü. – İstanbul, 1935.


## Моральные ценности, живущие на протяжении всей истории


**Айтек Мамедова**
Доктор философии по философии
Институт социологии и философии НАНА. Азербайджан.
E-mail: a.z.m-9@mail.ru



**Резюме.** В статье рассматриваются проблемы нравственных ценностей и показано, что эти ценности воспринимаются как система, сформированная человеческими знаниями. Когда мы говорим о моральных ценностях, мы, в первую очередь, имеем в виду справедливость, патриотизм, умеренность, терпимость, вежливость, честность, скромность, в целом, все положительные качества и добродетели, которые присущи человеку.

Исторически сложилось так, что существующие моральные ценности, традиции и добродетели, которые всегда и во все времена сохраняют свою ценность, и поколения передают это духовное богатство от своих предшественников будущим поколениям. Традиции и моральные ценности каждого народа – это богатое и ценное сокровище, оставленное их предками. Несмотря на то, что есть некоторые различия во взглядах на моральные ценности, в зависимости от требований истории и времени, подходы к моральным ценностям в целом не меняются.



**Ключевые слова:** история, ценность, наука, религия, человек